# “Könül dostlarımla yazışmalar” silsiləsindən
## (1980-ci illər)



*Yasin ŞAHMALIOĞLU*

### Zəmanə

Yanan qəlbi yanmağaca qoymayır,
Yaman qəlbə yaman yatır zəmanə.
Kim ki haqdan-ədalətdən doymayır,
Ruzusuna ağı qatır zəmanə.

İstəyəndə qılıncını endirir,
Neçə ümid çırağını söndürür.
Qanmazları tərkinəcə mindirir,
Qalanlara təpik atır zəmanə.

Saf vicdanın meydanı dar, təklənib,
Namus,qeyrət dərd qəm ilə yüklənib
Həqiqətin sərt səsindən səksənib,
Haqq-divana divan tutur zəmanə.

Eloğluyam, zaman hökmü verəndə,
Arzu ölür çox dərinə girəndə .
Gözlərimə inanıram görəndə,
Görməmişə gövhər satır zəmanə.

### Yanıram

Dünya bizi dəyirman tək üyüdür,
Ömrüm-günüm əzildikcə,yanıram.
Dərd üst-üstə yığıldıqca,böyüyür,
Can əriyib nəzildikcə,yanıram.

Günlərimiz əsib ötən yel kimi,
İllərimiz axıb gedən sel kimi.
Budağından qopub düşən gül kimi,
Əl ümiddən üzüldükcə, yanıram.

Əməllicə cılızlaşıb adamlar,
Mənəvicə yoxsullaşıb adamlar.
Ağıl azıb, yoxsa çaşıb adamlar?
Sorğu-sual düzüldükcə, yanıram.

Eloğluyam,qələm sözdən doymayır,
Gəl ki, dövran boy verməyə qoymayır.
Haqq içimdə bulaq kimi qaynayır,
Yaş gözümdən süzüldükcə, yanıram.

### Təfəkkür

Hər filosof min cür fikir söyləyir,
Fəlakətə son qoyammır, təfəkkür.
Çağırışlar, usyanlar da eyləyir,
Xəyanətə son qoyammır , təfəkkür.

O gündən ki Adəm batıb günaha
Bəşər qəlbi pak olammır bir daha.
Yeri-göyü silkələyən silaha,
Siyasətə son qoyammaır, təfəkkür.

Baxt ələyir başımıza boran,qar,
Qismət olmur insanlığa halal var.
Çoxlarını rəzlil edib ruzigar
Rəzalətə son qoyammır, təfəkkür.

Ay Eloğlu, şər götürüb hər yanı,
Yaradan da sağaldanmır yaranı.
Şeytan elə qatıbdır ki aranı
Ədavətə son qoyammır, təfəkkür.

### Yaxşılıq

Harda olsa xoş ətiri azalmır,
Gül-çiçəkli bir yaz olur, yaxşılıq!
Dərd odur ki, çoxlarında baş almır,
Qızıl kimi lap az olur, yaxşılıq!

İlahidən gözəllik var adında
Nəşəli bir şirinlik var dadında,
Naşükürün, qanmayanın yadında
Unudulur,qalmaz, olur yaxşiliq!

Ay Eloğlu, kimsə dara düşəndə,
Yaxşılıq et,ələ para düşəndə.
Yaxşılıqlar yaxşılara düşəndə.
İtib-batmır, solmaz, olur yaxşılıq!

### Bu dünyada.

Düz yaşamaq çətin işdir,
Vədi yalan bu dünyada!
Bacarırsan,aldın vermə,
Verib alan bu dünyada!

Ocaq yanır, köz boşalır,
Ürək yanır,göz boşalır.
Gödək ömür tez boşalır,
Özü dolan bu dünyada!

Gör Eloğlu, nələr deyər-
Bir haqq-divan olsa əyər.
Tikan olmaq nəyə dəyər,
Gülü solan bu dünyada!

### Dava

Hər sirrini bilənədək,
Dünya, sənlə davadayam!
Tale üzə gülənədək,
Dünya, sənlə davadayam!

Çox qananlar az yanmamış.
Çox dərdləri duyanmamış.
Bu döyüşlər dayanmamış
Dünya, sənlə davadayam!

Haqq gəzirəm, haşa çıxır,
Ümid bərkdə boşa çıxır.
Yaltaqlar ki başa çıxır,
Dünya, sənlə davadayam!

Eloğlunu tanıyasan:
-Əyilməyi deyiln asan!
Dünyalar da bağışlasan-
Dünya, sənlə davadayam!

### “Eloğlu” məsələsi- təxəllüsü haqqında

1969-cu ilin payızında, APİ-nin III kurs tələbəsi idim. Yaradıcılıqla məşğul olan bir tələbəyə istiqamət,məsləhətlər vermək,köməklik göstərmək üçün İsmayıl Şıxlıya müraciət etdim. Müraciət zamanı “eloğlu deyilikmi” ifadəsi də işlətdim.O gülümsündü, köməkliyini də elədi.

19 yaşlı bir gənc,yəni mən düşünüb-daşınmadan, dərindən dərk etmədən o ifadəni işlətmişdim. Sonralar isə dərk edəndə özümə gülümüşdüm.Həmin gündən o böyük şəxsiyyət həm tələbə ikən,həm də APİ-də işləyəndə dəhlizdə rastlaşarkən gülümsünüb “eloğlu nətərisən”-deyərdi. Hətta rəhmətlik Mehdixan Vəkilova da söyləmişdi. Hər ikisi mənə deyirdilər ki,”eloğlu”nu cızma-qaralarında təxəllüs götürüm... Hər ikisinə Allahdan bol-bol rəhmət diləyirəm...

*Qazax: 055-301-04-91*